Azərbaycan.- 2020.- 29 dekabr. S. 2.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm cənab Prezident!

Doğum gününüz münasibətilə Sizi Azərbaycan-Türkiyə İş Adamları Birliyi (ATİB) adından səmimi-qəlbdən təbrik edirik.

Sizin rəhbərliyinizlə Azərbaycanda iqtisadiyyatın və sosial sahənin modernləşdirilməsi istiqamətində aparılan siyasəti dəstəkləyir, Uca Allahdan bu yolda Sizə uğurlar diləyirik.

Bu il Sizin və ümumiyyətlə, Azərbaycan xalqı üçün əlamətdar bir ildir. Sizin rəhbərliyinizlə müzəffər Azərbaycan Ordusu 30 il işğal altında qalan torpaqlarımızı azad edərək ölkəmizin ərazi bütövlüyünü bərpa etdi. Bu müharibə göstərdi ki, Azərbaycan müasir, güclü ordusu olan və iqtisadiyyatı sürətlə inkişaf edən ölkədir.

Siz Azərbaycan ilə Türkiyə arasında strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş ənənəvi dostluq, qardaşlıq, mehriban qonşuluq münasibətlərinin inkişafına və möhkəmlənməsinə xüsusi töhfə vermisiniz. Azərbaycan-Türkiyə İş Adamları Birliyi olaraq bu siyasətin həyata keçirilməsinə daim dəstək göstərəcəyimizə Sizi əmin edirik.

Fürsətdən istifadə edərək təşkilatımızın fəaliyyətinə verdiyiniz dəstəyə görə Sizə bir daha təşəkkür edirik.

Doğum gününüzü bir daha ürəkdən təbrik edir, Sizə və ailənizə möhkəm cansağlığı və xoşbəxtlik, Azərbaycan xalqının rifahı naminə ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayırıq.

*Dərin hörmətlə,*

***Cemal YANGIN,***
***Azərbaycan-Türkiyə İş Adamları***
***Birliyi İdarə Heyətinin sədri***